BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Təbiət elmləri seriyası 2007*

# AZƏRBAYCAN HAQQINDA BƏZİ COĞRAFİ FİKİRLƏR VƏ ONLARIN COĞRAFİYA ELMİNİN İNKİŞAFINDA ROLU

**H.T.HAQVERDİYEV, V.Ə.QULUZADƏ**
***AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu***

*Məqalədə Azərbaycan haqqında coğrafi fikirlər ümumiləşdirilib və onların elmi təhlili verilmişdir. Eyni zamanda həmin fikirlərin Azərbaycanda coğrafiya elminin inkişafında mühüm rolu şərh olunur.*

Coğrafiya elminə dair qədim mənbələrə və bir sıra dünya coğrafiyaçılarının fikirlərinə görə Azərbaycanda coğrafi məskunlaşmanın təxminən 2 mln. il bundan əvvəl olduğu güman olunur. Müasir coğrafi tədqiqatlarda isə Azərbaycanda paleocoğrafi şəraitin təkamülü və yaxud onun bəzi elementlərinin formalaşmağa başlaması üçüncü dövrün sonlarına, yəni üç milyon il bundan əvvəlki dövrə aid edilir. Üçüncü dövrün ikinci yarısına kimi olan dövrdə Azərbaycanın əksər hissəsi su ilə örtülü olmuşdur. Yəni həmin dövrlərdə təbii coğrafi şəraitin tam formalaşması prosesi ləngimişdir. Yalnız, üçüncü dövrün ikinci yarısından sonra Xəzər dənizində gedən reqressiya proseslərin nəticəsində quru sahələrin genişlənməsi müasir coğrafi şəraitin hərtərəfli inkişafı üçün əlverişli şərait yaratmışdır. Məsələn, XII əsrdə Azərbaycanın indiki qədim Gəncə şəhərində üç yüz mindən çox əhali yaşamışdır. Lakin məşhur Nyu-York, San-Fransizko, Ottava və s. kimi şəhərlərdə əhalinin sayı bundan az olmuşdur. (N.Kərəmov, 1977).

Dünya coğrafiya elminin yaradıcılarından sayılan məşhur səyyah Hacı Zeynalabdin Şirvani bir neçə əsr bundan əvvəl Avropa, Asiya, Afrika ölkələrində və dünya okeanlarında bir sıra coğrafi müşahidələr apararkən həmişə Azərbaycanın təbii coğrafi mövcudluğunu, rəngarəngliyini onlarla müqayisə etmişdir. O, göstərir ki, dünyada mövcud olan bütün coğrafi qanunauyğunluqların və təbiətin yaratdığı möcüzələrin demək olar ki, əksəriyyətinə Azərbaycanda rast gəlinir. Azərbaycan hətta qədim milli mədəniyyətinə, coğrafi zənginliyinə görə həmin ölkələrin çoxunu kölgədə qoyur. O, həmçinin Azərbaycanı Ərəbistan səhraları, Afrika savannaları, Çin meşələri ilə müqayisə etmişdir. Özünün dünya coğrafiyasına həsr etdiyi «Səyahət baxçaları», «Səyahət bağları», «Səyahət bostanı» kimi əsərlərində yeri gəldikcə Azərbaycanın coğrafi zənginliyi, milli mədəniyyəti haqqında maraqlı müqayisələr yazmışdır.

H.Z.Şirvani ilk dəfə (1826-cı ildə) Azərbaycanın Muğan çölünü müşahidə edərkən Azərbaycanın coğrafi cəhətdən üç bölgədən ibarət olmasını güman etmişdir. Yəni Kür çayından şimalda Şirvan, Kür çayı ilə Araz çayı arası sahəni Aran, Araz çayından cənubda qalan sahəni isə Muğan əyaləti adlandırmışdır.

Tədqiqatçı maraqlı olaraq qeyd edir ki, 1890-cı illərə qədər Araz çayı, özü bir başa sərbəst şəkildə Xəzər dənizinə tökülmüş, lakin 1890-cı illərdən sonrakı dövrdə morfotektonik proseslərin sayəsində Araz çayı özünün indiki yatağına düşmüş və ətraflarında çoxlu sayda silsiləvari çala-çəmən, bataqlıq landşaftlarını formalaşdırmışdır. Hazırda çay boyu yayılmış yarımsəhra landşaftı zonasında «intra zonal» landşaftı aydın seçilir və bu kompleksin inkişafında bilavasitə Araz çayından qidalanan həmin qrunt sularının səviyyəsi mühüm rol oynayır. Lakin yay aylarında həmin çala-çəmən landşaftlarından buxarlanma artır, nəticədə bataqlıq landşaftlarının sahəsi çoxalır, qış və payız fəslində isə əksinə həmin yerlərdə çala-çəmən landşaftının elementləri artır. Ona görə bu tipli landşaft növləri əslində «intro zonal» olmaqla «mövsümü landşaft» kimi də qəbul olunur.

H.Z.Şirvaninin XII əsrdə Şirvan əyalətində iri şəhər və yaşayış qəsəbələrinin və onların coğrafi məskunlaşması haqqındakı fikirləri də Azərbaycanda tarixi coğrafiyanın formalaşması baxımından çox maraqlıdır. Xüsusilə o, Qobustan ərazisini hələ o vaxtlardan olduqca yararsız və cansız landşaft sahəsi kimi Qafqazın cənub ətəklərində başdan-başa yovşanlıqlardan ibarət xiyabanlıqlar adlandırmışdır. İndiki Ağsu şəhərini vaxtilə o, Şamaxı şəhəri kimi adlandırmışdır. Bu da Azərbaycanda yaşayış məntəqələrinin coğrafi məskunlaşması tarixinin öyrənilməsində elmi cəhətdən çox maraqlıdır. Çünki, vaxtilə Nadir Şah qədim Şamaxını darmadağın etdikdən sonra oradakı bütün yerli əhali məcbur olub Ağsu şəhərinə köçmüşdür. Ona görə vaxtilə Ağsunu «Kamaxeya» adı altında Şamaxı adlandırmışdır. Sonralar aparılan arxeoloji və coğrafi tədqiqatlar əsasında qədim Şamaxı şəhərinin coğrafi keçmişi və coğrafi mövqeyi bərpa edilərək öz məkan mövcudluğunu saxlamışdır və əhali öz yerlərinə köçmüşdür.

Arxeoloji qazıntılar da sübut edir ki, Şamaxı eramızdan əvvəl III əsrdə salınmış və eramızın VII-VIII əsrlərində dağılmışdır. Eramızın II əsrində yaşamış yunan coğrafiyaşünası Klavdi Ptolemey qədim Albaniyanın şəhərləri sırasında Şamaxı şəhərinin adını çəkmişdir. XIII əsrdə Şamaxı Avropada ipək malları ticarəti üzrə ən iri ticarət mərkəzi idi. Dünyanın əksər yerlərindən buraya ticarətə gəlirdilər. Buna səbəb onun coğrafi mövqeyi, coğrafi zənginliyi və Avropadan Çinə, Hindistana gedən yolların üzərində yerləşməsi idi.

Məşhur fransız səyyahı C.Qanivey 1746-cı ildə Azərbaycanda olmuş, onun coğrafiyası və milli mədəniyyəti ilə yaxından maraqlanmışdır. Öz qeydlərində o, həmin dövrdə 50 nəfər hindli təbiətşünaslarının Suraxanıdakı Atəşgahın tarixi-coğrafi fəaliyyətinin öyrənmələrindən yazmışdır.

Məşhur coğrafiyaşünas Strabon müasir Muğan düzündə bu günə qədər təsərrüfatlarda geniş istifadə olunan qədim suvarma kollektor sisteminin səmərəli tədbiqini Azərbaycanda həm coğrafiya və həm də əkinçilik mədəniyyətinin təkamülü hesab etmişdir. Dünyada süni suvarma kollektor sisteminin vətəni Misirdir. Lakin oradan fərqli olaraq Azərbaycanda onun daha səmərəli tətbiq olunmasını milli elmi səviyyənin inkişafı kimi qeyd etmişdir. Eyni zamanda ilk dəfə olaraq onun həmin ərazilərdə etnik kaspi tayfalarının məskunlaşması haqqında da məlumatları böyük əhəmiyyət kəsb edir.

Böyük rus alimi D.Mendeleyev 1862-ci illərdə bir sıra hindli coğrafiyaçı və təbiətşünaslarının Azərbaycana gəlişini artıq Azərbaycan haqqında elmi fikirlərin beynəlxalq aləmdə tanınması, mühüm ticarət mərkəzlərinin, xüsusilə Şamaxı ipəkçiliyinin dünyada məşhur olması kimi qiymətləndirmişdir.

Görkəmli tarixçi A.Bakıxanovun 1844-cü ildə rus dilinə tərcümə olunmuş «Gülüstani-İrəm» klassik əsərində təkcə Azərbaycan haqqında yox, bütünlüklə Şərqi Qafqazın coğrafiyasına dair geniş elmi məlumat verilmişdir. Ondan bir il sonra, 1845-ci ildə məşhur bioloq Karl-Kox Qubada A.Bakıxanovla görüşündə bu əsərin dünyavi əhəmiyyətindən danışmışdır.

Azərbaycanda Kox şamlarından ibarət meşələrin, onların mənşəyi və coğrafi yayılması haqqında elmi məlumatları məşhur fransız alimi, botanik Karl Kox vermişdir. O, Kox şamı meşələrinin Azərbaycanın dağlıq ərazilərinin bəzi yerlərində yayılmasını əsasən mikro coğrafi şəraitlə əlaqələndirmişdir. Sonralar isə Azərbaycanda Kox meşələrinin coğrafi-iqlim xüsusiyyətləri, onların yayıldığı sərhədləri və arialları geniş şəkildə öyrənilmişdir.

Hazırda Göy-gölün cənub ətraflarında, Kəpəz dağının uçqun materialları üzərində, Qusar rayonunda Kox şamlarından ibarət meşələrin geniş yayılmasını onun fikrinə əsaslanaraq, «yerli» mikro coğrafi xüsusiyyətlərilə əlaqələndirirlər (V.C.Hacıyev-1962). V əsrdə Azərbaycana səfər etmiş Bizans diplomatı Priisk Paniyski, X əsrdə Şərqin heredotu kimi tanınan məşhur ərəb coğrafiyaşünası Məsudi və ərəb tarixçisi İstəxri Azərbaycanda neft ehtiyatlarının bolluğunu, Pirallahı adasında daimi «Yanar Qazın» əmələ gəlməsini paleocoğrafi şəraitlə, xüsusilə çöküntü materiallarının biogeoloji tərkibilə əsaslandırmışlar. Böyük rus səyyahı Afanasi Nikitinin də öz dövründə Azərbaycanla yaxından əlaqəsi olmuşdur. O da özünün «Od sönmədən yanar» adlı coğrafi qeydlərində Azərbaycanda neftin əmələgəlməsində paleocoğrafi şəraitin mühüm rol oynadığını göstərmişdir.

Beləliklə, müəyyən dövrlərdə Azərbaycanın coğrafiyasına dair deyilmiş fikirlər, qeydlər öz növbəsində Azərbaycanda coğrafiya elminin təkamülündə, onun yeni-yeni tədqiqat sahələrinin formalaşmasında, müasir coğrafi problemlərin həll olunmasında ilkin elmi-nəzəri mənbə kimi mühüm rol oynamışdır.

Son dövrlərdə müasir diyarşünaslıq, təbiətşünaslıq, iqlimşünaslıq və paleocoğrafiya sahələrinin yaradılmasında bu fikir və ideyaların böyük təsiri olmuşdur. Eyni zamanda həmin fikirlərin yenidən tədqiq olunması, öyrənilməsi müasir coğrafiya elmini daha da zənginləşdirmişdir. Yeni-yeni tədqiqat problemlərinin müəyyən edilməsinə, tədqiqat metod və prinsiplərinin işlənilməsinə zəmin yaratmışdır. Məsələn, bəzi coğrafi mənbələrdə yaxın keçmişlərə kimi, yəni təxminən 150 il bundan əvvəl indiki Salyan şəhərinin Xəzərin düz sahilində yerləşdiyi göstərilmişdir. Müasir coğrafi tədqiqatlar da bu fikrin həqiqətə uyğun olduğunu göstərir. Çünki bir neçə yüz illiklər ərzində Xəzər dənizinin səviyyəsi dəfələrlə tərəddüdlərə məruz qalmışdır. Bundan başqa Kür çayının hər il özü ilə gətirdiyi külli miqdarda (təxminən ildə 40-50 mln. ton) çöküntü materiallarının əksər hissəsi sahil zonasında toplanır, nəticədə böyük quru sahələri yaranır. Eyni coğrafi inkişaf prinsipinə uyğun olaraq zaman keçdikcə sahilyanı yaşayış məntəqələri, o cümlədən Salyan

şəhəri sahildən xeyli uzaqlaşmışdır. Xəzərin səviyyəsinin dəyişməsi nəticəsində onun aкvatoriyasında bu кimi coğrafi dəyişiкliкlər həmişə baş vermişdir.

1970-ci illərdən sonra təxminən son otuz il ərzində Xəzərin səviyyəsinin enməsi nəticəsində sahilyanı zonada ən cavan yarımsəhra landşaftının sahəsi qat-qat artmışdır, ətraf landşaftlarda ciddi aridləşmə prosesi baş vermişdir. Hətta Nabran zonasında yeraltı suların səviyyəsi 2-3 m aşağı düşmüşdür.

## ƏDƏBİYYAT


1.B.Ə.Budaqov. Coğrafiya elminin uğurları. Baкı, 2001.
2.N.K.Kərəmov. Qırx il səyahətdə. Baкı, 1977.
3.V.A.Yesaкov. Rusiyanın fiziкi coğrafiyası (XIX-XX əsrlərdə) (rus dilində).
4.İ.M.Zabelin. SSRİ-də coğrafi fiкirlərin tarixi (1917-1945-ci illər). Mosкva, 1989 (rus dilində).
5.B.Ə.Budaqov, E.A.Kərimov. R.C.C.-nin Qafqaz şöbəsi və Azərbaycanın fiziкi coğrafiyası məsələləri. AEA Xəbərləri, 1987, N3 (rus dilində).
6.V.C.Hacıyev. Böyüк Qafqazın subalp bitкililiyi. Baкı, 1962 (rus dilində).


## НЕКОТОРЫЕ ГЕОГРАФИЧЕСКИЕ МЫСЛИ ОБ АЗЕРБАЙДЖАНЕ И ИХ РОЛЬ В РАЗВИТИИ ГЕОГРАФИЧЕСКОЙ НАУКИ


**А.Т.АХВЕРДИЕВ, В.А.КУЛУЗАДЕ**


### РЕЗЮМЕ


В статье обобщены и проанализированы географические мысли, касающиеся истории развития географии Азербайджана.

Выявлено, что фундамент современных географических условий заложен около трех миллионов лет тому назад. Однако, со временем, географические условия, претерпев качественные и количественные изменения, сформировались в современном орографическом плане.

В статье также отражены наиболее интересные мысли дискуссионного характера ряда азербайджанских географов о географических изменениях в Азербайджане, что имеет большое как познавательное, так и научно-теоретическое значение при исследовании различных направлений географической науки.


## SOME GEOGRAPHICAL THOUGHTS ABOUT AZERBAIJAN AND THEIR ROLE IN DEVELOPMENT OF THE SCIENCE OF GEOGRAPHY


**A.T.HAGVERDIYEV, V.A.GULUZADE**


### SUMMARY


The geographical thoughts concerned to the history of development of geography in Azerbaijan are generalized and analysed in the article.

It has been already revealed that the foundation of present geographical conditions were laid about three million years ago. However, in the course of time the geographical conditions undergone qualitative and quantative changes and was formed the morden orographical plan.

The most interesting thoughts of a number of Azerbaijan geographical on the geographical changes in Azerbaijan have a great cognitive and scientific-theoretical importance in studying of different directions of the science of geography are elucidated as well.